# Seçki qutusuna və xüsusi zərflərə nəzarət edən komissiya üzvünün funksiyaları

- Daimi surətdə seçki qutusunun yanında olmalısınız.

- Seçki qutusuna və xüsusi zərflərə nəzarət etməlisiniz.

- Seçki qutusundakı xüsusi zərfin atıldığı kəsik qapalı olmalıdır.

- Səsvermə kabinəsindən seçici çıxdıqdan sonra ona göstəriş verin ki, ayrıca qoyulmuş masanın üzərindən müstəqil olaraq bir xüsusi zərf götürsün və qatlanmış seçki bülleteni/bülletenləri onda yerləşdirsin.
  Seçiciyə izah edin ki, səsvermədən sonra istifadə etdiyi qələmi səsvermə binasında yerləşdirilən xüsusi konteynerə qoysun.

- Seçicinin əlində yalnız bir zərf tutduğuna əmin olduqdan sonra, seçki qutusunun kəsiyini açın və seçiciyə xüsusi zərfi qutuya atmasına göstəriş verin.

- Xüsusi zərfi qutuya atdıqdan sonda seçicidən seçki məntəqəsini tərk etməyi xahiş edin.

# Nəzərə alın!

- ✓ Yalnız seçicinin seçki bülleteni xüsusi zərfdə yerləşdirmək hüququ vardır. Fiziki vəziyyətə malik seçici istisna olur, onun əvəzinə, onun iştirakı ilə bülleten(lər)i öz arzusu ilə seçdiyi şəxs xüsusi zərfdə yerləşdirir və zərfi seçki qutusuna atır, hansı ki, səsvermə kabinəsində seçki bülleteninin doldurulmasında ona yardım göstərir.

- ✓ Səsvermə qutusunun yanında eyni vaxtda bir nəfərdən çox seçicinin olması yolverilməzdir.

- ✓ Seçki komissiyası üzvünün doldurulmuş seçki bülleteni açmaq hüququ yoxdur.

- ✓ Seçici xüsusi zərfdə bülleteni yerləşdirənə qədər ondan əlində müvafiq sayda seçki bülleteni (elə ki, səsvermənin gizliliyi pozulmasın) və bir zərf olduğunu göstərməyi tələb etmək hüququnuz vardır. Seçici bu tələbi yerinə yetirməyə məcburdur.